# Qanlı, şanlı tariximiz:

## 20 Yanvar faciəsinin 35-ci ildönümü




### Milli azadlıq yolunda qəhrəmanlıq

1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixində qanla yazılmış bir səhifədir. Bu tarix xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinin ən faciəli, lakin şərəfli günlərindən biri kimi xatırlanır. Azərbaycanın milli iradəsinin sarsılmaz rəmzinə çevrilmiş həmin gün, 35 il əvvəl, yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqının silahlı qüvvələri Bakıya daxil olaraq mülki əhaliyə qarşı misli görünməmiş bir qətliam törətdilər. Bu, sovet rejiminin Azərbaycan xalqının azadlıq arzularını susdurmaq cəhdi idi. Hərbi texnika və ağır silahlarla həyata keçirilən bu qanlı hücum nəticəsində yüzlərlə insan həyatını itirdi, yaralandı və ya itkin düşdü. Ancaq bu faciə xalqımızın milli mənliyini, azadlıq istəyini və müstəqillik əzmini qıra bilmədi.

Qanlı Yanvar hadisəsi, eyni zamanda Azərbaycan xalqının öz hüquqları uğrunda mübarizədə nə qədər qətiyyətli olduğunu göstərdi. Sovet ordusunun törətdiyi bu vəhşiliklərə baxmayaraq, xalq küçələrə axışaraq şəhidlərini böyük ehtiramla son mənzilə yola saldı. O gecə Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizənin dönüş nöqtəsi oldu. Bu faciəli hadisələrdən dərhal sonra Azərbaycan xalqı daha böyük əzmlə milli müstəqillik yoluna qədəm qoydu. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və Qanlı Yanvar şəhidlərinin qanı ilə yazılan bu tarix ölkəmizin azadlıq yolundakı qurbanların əbədiləşmiş simvolu oldu.

### Ağır faciə və insanlığa qarşı cinayət

Bu tarix xalqımızın milli azadlıq mübarizəsinin qəhrəmanlıq səhifəsi olmaqla yanaşı, sovet imperiyasının dinc insanlara qarşı törətdiyi misilsiz cinayətlərin simvoludur. SSRİ Kommunist Partiyasının baş katibi Mixail Qorbaçov və müdafiə naziri Dmitri Yazovun rəhbərliyi ilə Azərbaycanın istiqlal hərəkatının üzvlərinə divan tutuldu. Azərbaycanın siyasi mübarizəsi və müstəqillik arzusu qarşısında Sovet rəhbərliyinin tətbiq etdiyi təzyiqlər daha da güclənmişdi.

1988-ci ildə Azərbaycan SSR Sovet İttifaqının konservativ respublikalarından biri idi, burada siyasi dissidentlər üçün yer yox idi.

19 yanvardan 20 yanvara keçən gecə Qorbaçov və onun rəhbərlik etdiyi güc nazirləri Bakıya qoşun yeritməyi qərara aldılar. Gecəyarı fövqəladə vəziyyət elan olundu, lakin bu barədə şəhər sakinləri xəbərdar deyildilər. Axşam saat 7:30-da televiziya stansiyasının enerji bloku partladığı üçün yayımlar dayandı. Nəticədə bakılılar fövqəladə vəziyyət barədə yalnız səhər saat 5:30-da radioda və vertolyotlardan atılan vərəqələrlə məlumatlandılar. Saat 23:30 radələrində keçmiş Sovet İttifaqının müxtəlif təyinatlı qoşun hissələri heç bir xəbərdarlıq etmədən Bakıya yeridildi. Fövqəladə vəziyyət elan edilmədən küçə və meydanlarda toplaşan dinc əhali amansızcasına atəşə tutuldu.

Bu qəfil hücum nəticəsində yüzlərlə əliyalın insanın həyatına son qoyuldu, yaralandı və itkin düşdü. Gecə boyu Bakıda sovet hərbçiləri tərəfindən həyata keçirilən bu qanlı əməliyyat zamanı 82 nəfər amansızcasına qətlə yetirildi, 20 nəfər isə ağır yaralandı. Fövqəladə vəziyyət elan edildikdən sonra belə, yanvarın 20-də və sonrakı günlərdə Bakıda 21 nəfər öldürüldü. Bu vəhşiliklər təkcə paytaxtla məhdudlaşmadı. Yanvarın 25-də Neftçalada, yanvarın 26-da isə Lənkəranda 8 nəfər dinc sakin qətlə yetirildi. Sovet rejiminin bu cinayətləri, əslində, Azərbaycan xalqının milli müstəqillik arzularını və azadlıq ideallarını boğmaq məqsədi daşıyırdı. Lakin bu qanlı hücum xalqın iradəsini qıra bilmədi. Əksinə, yanvarın 20-si milli birliyimizin sarsılmaz rəmzinə çevrildi. Həmin gecə şəhid olan qəhrəmanlar, azadlıq uğrunda mübarizəmizin alovunu daha da gücləndirdilər.

Bu faciə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli və ermənipərəst siyasətinin nəticəsi olaraq meydana gəldi. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkar siyasəti açıq şəkildə dəstəkləndi. Bu şəraitdə Azərbaycanın ozamankı rəhbərliyinin xalqın mənafeyinə zidd mövqeyi vəziyyəti daha da ağırlaşdırdı. Bu ədalətsizliklərə qarşı geniş xalq kütlələri etiraz edərək ayağa qalxdılar. Lakin etirazlar amansızlıqla yatırıldı. Sovet ordusunun iri hərbi birləşmələrinin şəhərə yeridilməsi Bakıda və digər bölgələrdə misli görünməmiş bir faciəyə səbəb oldu. Günahsız insanların həyatına qəsd edilməsi, evlərin dağıdılması və əmlakın məhv edilməsi, həmçinin insanlığa qarşı törədilən bu cinayətlər Qanlı Yanvarı təkcə Azərbaycanın deyil, həm də dünya tarixinin səhifələrindən birinə çevirdi.

### Milli heysiyyətin təntənəsi

Azərbaycan xalqının 20 Yanvar şəhidlərinə göstərdiyi yüksək ehtiram onun mübariz və qəhrəman ruhunun, milli heysiyyətinin əyani təzahürüdür. Bu məsələdə dövlətimizin apardığı ədalətli və uzaqgörən siyasətin də rolu danılmazdır. 1993-cü ildən başlayaraq Azərbaycan dövləti 20 Yanvar hadisəsinin tarixi və ictimai-siyasi mahiyyətinə xüsusi diqqət yetirmiş, şəhidlərin xatirəsini əziz tutaraq, onların ailələrinə və yaxınlarına daima qayğı göstərmişdir. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il 21 noyabr tarixində 20 Yanvar faciəsinə ilk siyasi qiyməti vermişdir. Daha sonra 1991-ci il 7 mart tarixində Azərbaycan SSR Ali Sovetinin sessiyasında çıxışı zamanı Heydər Əliyev bəyan etmişdir ki, 1990-cı il yanvarın 20-də İttifaq dövləti Azərbaycan xalqına qarşı hərbi təcavüz törətmişdir. Milli azadlıq hərəkatının mərkəzinin Bakıdan Naxçıvana keçməsi və bu hərəkatın başında Heydər Əliyev kimi təcrübəli liderin dayanması, qısa müddətdə Azərbaycan cəmiyyətini milli qurtuluş ideyası ətrafında birləşdirmişdir. Bu dövr xalqımızın milli iradəsinin, həmrəylik ruhunun və müstəqillik yolunda göstərdiyi əzmin önəmli mərhələsi olmuşdur.

Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan 20 Yanvar faciəsinə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra, məhz ulu öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi və Azərbaycan Respublikasının Milli Məclisinə xüsusi sessiyanın təşkil edilməsi məsələsinə baxmaq tövsiyə edilmişdir. Milli Məclisin 1994-cü il 29 mart tarixində qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret olaraq göstərilmiş və bu qanlı hadisə Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın iradəsini zəiflətmək məqsədilə totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirilmişdir. Həmçinin 20 Yanvar Ümumxalq Hüzn Günü elan edilib, şəhidlərin xatirəsi dövlət səviyyəsində qeyd olunmağa başlanıb. Bu tədbirlər Azərbaycanın müstəqillik mübarizəsi və qəhrəmanlıq tarixinin bir parçası olaraq gələcək nəsillərə çatdırılmasını təmin edir.

### 20 Yanvarın xatirəsi və müstəqillik yolu

Həmin vaxt ABŞ və Böyük Britaniya mətbuatında Qara Yanvarla bağlı geniş məlumat verilmişdir. "Los Angeles Times", "The New York Times" və digər media orqanları hadisəni Sovet qoşunlarının Bakıdakı hərbi əməliyyatları ilə əlaqələndirərək, Azərbaycan xalqının müstəqillik mübarizəsini vurğulamış, hərbi müdaxilənin dünya ictimaiyyəti tərəfindən qəzəblə qarşılandığını bildirmişlər. Böyük Britaniya mətbuatı da bu əməliyyatı imperiyanın qorxusu və Azərbaycan xalqının mübarizəsinin nəticəsi kimi qiymətləndirmişdir. Türkiyənin Baş naziri Bülent Ecevit Azərbaycanı dəstəklədiyini bəyan etmişdir. Beynəlxalq reaksiyalar da müxtəlif olub, ABŞ və İran hadisələri pisləyib və Sovet hakimiyyətinin yanlış tədbirlərini dayandırmağa çağırmışdır.

Qanlı Yanvar hadisələrindən bizi 35 illik bir tarix ayırır. Bu müddət ərzində Azərbaycan xalqı müstəqilliyini bərpa etmiş, müasir və güclü bir dövlət qurmuşdur. Xalqımız böyük inkişaf yolu keçərək dünya ölkələri arasında özünəməxsus və şərəfli yerini tutmuşdur. Faciəvi hadisələrdə canından keçmiş qəhrəmanlarımızın xatirəsi daim xalqımızın yaddaşında xüsusi ehtiramla yaşadılır. Hər il minlərlə insan Şəhidlər xiyabanına üz tutaraq, azadlıq və müstəqillik yolunda canını fəda etmiş oğul və qızlarımızın ruhunu ehtiramla yad edir. Bu xalqımızın tarixə və qəhrəmanlarına olan dərin hörmətinin ifadəsidir. Qanlı Yanvar faciəsinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və Azərbaycan icmaları tərəfindən bir sıra təşəbbüslər və tədbirlər həyata keçirilir. Bu fəaliyyətlər faciənin beynəlxalq aləmdə düzgün qiymətləndirilməsini və Azərbaycan xalqının haqlı mübarizəsinin geniş auditoriyaya təqdim edilməsini təmin etmək məqsədi daşıyır. Həmçinin bu tədbirlər faciənin əsl simasının tanıdılmasına və xalqımızın müstəqillik yolunda verdiyi böyük mübarizənin təbliğinə yönəlmişdir.

Bu gün yanvarın 20-si həm də qəhrəmanlıq və iradə simvoludur. Hər il bu tarixdə şəhidlərimiz ehtiramla yad edilir, onların xatirəsi önündə baş əyilir. Bu, Azərbaycan xalqının milli mənliyinə və müstəqillik ideallarına olan sarsılmaz bağlılığının göstəricisidir. Qanlı Yanvar hadisələrinin 35-ci ildönümü bizə yalnız keçmişimizi deyil, həm də gələcəyimizi qorumağın, azadlıq və müstəqillik ideallarını yaşatmağın vacibliyini xatırladır. Bu tarix milli birliyimizin, mübarizə əzminin və qəhrəmanlıq ruhumuzun təcəssümüdür.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**

Respublika .- 2025.- 19 yanvar (№12).-